

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 yanvar 2023-cü il №1 (2713) https://mod.gov.az Qiymәti 30 qәpik

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



- Əziz həmvətənlər.

Bir il əvvəl Yeni il bayramı münasibətilə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, əminəm, 2022-ci il də ölkəmiz üçün uğurlu olacaq. Belə də oldu. Qarşımızda duran bütün vəzifələr icra edildi, Azərbaycan daha da gücləndi.

İki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik. Bu ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Hesab edirəm ki, bundan sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edildi və Azərbaycan tərəfindən təklif olunmuş məlum beş prinsip əsasında sülh müqaviləsi imzalana bilər.

Bu il biz hərbi gücümüzü daha da artırmışıq, bu sahəyə daim böyük diqqət göstərilir. Azərbaycan həm İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü göstərmişdir, eyni zamanda, müharibədən keçən iki il ərzində biz aparılan islahatlar nəticəsində, yeni silahlı birləşmələrin yaradılması nəticəsində, silahlar və müasir texnika ilə ordumuzu təchiz etməyimiz nəticəsində daha da böyük hərbi potensiala malik olduq.

Bu il bir neçə hərbi əməliyyat keçirildi və bu əməliyyatlar döyüş qabiliyyətimizin yüksək səviyyədə olmasını bir daha təsdiqlədi. Fərrux əməliyyatı, "Qisas" əməliyyatı, eyni zamanda, sentyabr ayında Azərbaycan və Ermənistan sərhədi istiqamətində gedən toqquşmalar bizim növbəti parlaq qələbəmizlə nəticələndi. Sərhəd toqquşmaları nəticəsində Azərbaycan bir çox əlverişli strateji yüksəkliklərdə öz mövqelərini daha da möhkəmləndirə bilmişdir.

Avqustun 26-da - nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl biz Laçın şəhərini də azad etdik və eyni zamanda, Laçın rayonunun Zabux və Sus kəndlərinə də qayıtdıq. Bu da böyük nailiyyətdir. Artıq Laçın şəhərində çox genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar.

Eyni zamanda, bu il Ağalı kəndində həyat artıq bərpa edilib. Birinci layihə icra edilmişdir və zəngilanlılar öz doğma torpağına qayıtmışlar. Bu, tarixi hadisədir. Çünki müharibədən iki il keçmədən - cəmi il yarımdan sonra biz artıq birinci keçmiş köçkünləri öz doğma torpaqlarına qaytarmışıq, onlar üçün gözəl şərait yaratmışıq. Bu, bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda, bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır, necə deyərlər, torpaq çəkir. Hətta heç vaxt o yerləri görməyən gənclər, uşaqlar, məktəblilər böyük həvəslə Ağalıya qayıdıblar və bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, məcburi köçkünlər qayıdış gününü səbirsizliklə gözləyirlər.

Böyük Qayıdış Proqramı uğurla icra edilir. Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə Şuşa, eyni zamanda, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Bununla bərabər, 10-dan çox kəndin Baş planı təsdiqləndi və bir neçə kəndin təməlini mən şəxsən qoymuşam. Bütövlükdə deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda, Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq.

Əlbəttə ki, bununla paralel olaraq, minatəmizləmə işləri aparılır. Əfsuslar olsun ki, Ermənistan bizə dəqiq mina xəritələrini verməyib, 300-ə yaxın azərbaycanlı müharibədən sonrakı dövrdə mina faciəsi nəticəsində ya həlak olmuş, ya da ağır yaralanmışdır.

Bu il biz Zəngilan Beynəlxalq Hava Limanının açılışını etdik. Bu, azad edilmiş torpaqlarda ikinci hava limanıdır. Üçüncü hava limanı isə maksimum iki ildən sonra istifadəyə veriləcək.

Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır.

Azad edilmiş ərazilərdə bizim tarixi binalarımız, o cümlədən məscidlərimiz əsaslı şəkildə bərpa edilir və yenidən inşa olunur. Mən bu rəqəmi səsləndirmişdim, ermənilər işğal dövründə 67 məsciddən 65-ni tamamilə yerlə-yeksan etmişlər. Onların bərpası, yenidən qurulması faktiki olaraq artıq başlamışdır və təmirə ehtiyacı olan məscidlər də təmir edilir. Onu da bildirməliyəm, bizim dini abidələrimizin inşası və təmiri ilə bağlı əsas rolu Heydər Əliyev Fondu oynayır. Faktiki olaraq bütün məscidlər Heydər Əliyev Fondunun xətti ilə yenidən inşa edilir.

Əlbəttə ki, bütün bu nailiyyətlərə çatmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır və iqtisadi müstəqillik çoxdan təmin edilib. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Əgər bu ilin iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, postpandemiya dövrü üçün nəticələr qənaətbəxşdir. İqtisadiyyat təxminən 5 faiz artıb, qeyri-neft sektorunda 9 faizdən çox artıb. Bununla bərabər, bizim ümumi daxili məhsulumuz bu il rekord həddə - 130 milyard manata çatıb. Bu, tarixi nailiyyətdir. Bununla paralel olaraq bizim xarici dövlət borcumuz xeyli azalıb. Bu vəzifəni bir neçə il bundan qabaq mən hökumət qarşısında qoymuşdum ki, bizim xarici borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olmalıdır. Keçən il 17 faiz idi, bu ilin son nəticələrinə görə 9,5 faizdir. Müqayisə üçün deyə bilərəm ki, bəzi inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsulun 100, 120, hətta 150 faizini təşkil edir. Yəni, biz tamamilə beynəlxalq maliyyə institutlarından asılı deyilik.

Əlbəttə, biz ümid edirik ki, beynəlxalq donor təşkilatları öz diqqətini bizə də istiqamətləndirəcəklər. Çünki bu dərəcədə böyük dağıntılar tarixdə olmayıb. Yəni, Azərbaycan böyük ekoloji fəlakətlə, urbisidlə üzləşib. Ancaq əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bir manat, ya bir dollar kömək etməyiblər. Nəinki donor təşkilatları, heç kim bizə kömək etmir, bütün bərpa işlərini öz hesabımıza aparırıq və aparacağıq.

Bu il energetika sahəsində çox əlamətdar hadisələr baş verib. İlin ortasında Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Artıq bu memorandum icra edilir, Azərbaycan dünya bazarlarına öz təbii qazının ixracatını artırır. Bu ilin sonunda - dekabrın 17-də isə yeni böyük meqalayihəyə start verildi. Qara dənizin dibi ilə elektrik kabelinin çəkilişi imkan verəcək ki, Azərbaycan bu sahədə də öz rolunu daha geniş miqyasda oynasın. Çünki bu elektrik enerjisinin əsas təchizatçısı Azərbaycan olacaq və bu, yaşıl enerji olacaqdır. Mən artıq bir neçə dəfə demişdim ki, Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası olmalıdır. Artıq biz buna nail oluruq və olacağıq. Eyni zamanda, Azərbaycanın çox geniş bərpaolunan enerji mənbələri həm ölkəmiz üçün, həm də dünya üçün böyük əhəmiyyət kəsb edir. Mən bu rəqəmləri bu yaxınlarda səsləndirmişdim, təsdiq edilmiş bərpaolunan enerji mənbələrinin potensialı 184 min meqavatdır. Bunun 157 mini Xəzər dənizinin Azərbaycan sektorunda mövcuddur. Yəni, bu, ölkəmizi əvəzolunmaz tərəfdaşa, enerji sahəsində əvəzolunmaz tərəfdaşa çevirəcəkdir.

Biz ənənəvi olaraq regional inkişaf proqramı ilə ciddi məşğul olmuşuq. Mənim regionlara bu il 30 səfərim olubdur, o cümlədən 21 səfər azad edilmiş torpaqlaradır.

Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Dünyada yaşayan bütün soydaşlarımızı ənənəvi olaraq səmimiyyətlə salamlayır, onlara uğurlar arzulayıram. Onlar bilirlər ki, güclü müstəqil Azərbaycan dövləti var və onların arxasında dayanır. Əminəm, bu gün xaricdə yaşayan azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, müstəqil Azərbaycanın, müzəffər Azərbaycanın övladlarıdır.

Bu il Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının Qurultayı tarixi hadisə idi. Bu qurultayın məhz Şuşada keçirilməsi çox böyük rəmzi məna daşıyırdı. Necə ki, Azərbaycan cəmiyyəti, Azərbaycan vətəndaşları bir yumruq kimi birləşib, əminəm, dünya azərbaycanlıları, onların mütləq əksəriyyəti də eyni yanaşma göstərəcəklər. Hər halda güclü Azərbaycan dövləti onlar üçün böyük dayaqdır.

Əziz həmvətənlər.

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, cansağlığı, uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

# Müdafiə naziri Quru Qoşunlarında olub





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, yanvarın 3-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Quru Qoşunlarının qərargahında olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik Zakir Həsənov Quru Qoşunlarının Döyüşü İdarəetmə Mərkəzində əməliyyat şəraiti ilə bağlı məruzələri dinləyib, xidməti-döyüş fəaliyyətinə dair müvafiq göstərişlər verib.

Sonra Quru Qoşunlarının idarə heyəti ilə keçirilən xidməti müşavirədə görülən işlərin təhlili aparılıb, döyüş hazırlığının və hərbi qulluqçuların peşəkarlığının daim yüksək səviyyədə saxlanılması, eləcə də bölmələrin və idarəetmə məntəqələrinin praktiki məşq etdirilməsi ilə bağlı göstərişlər verilib.

General-polkovnik Zakir Həsənov Ali Baş Komandanının Azərbaycan Ordusunun qarşısında qoyduğu tapşırıqları aidiyyəti üzrə komandir-rəis heyətinin diqqətinə çatdırıb. Müşavirə iştirakçılarına 2023-cü ildə xidmətlərində uğurlar arzulayıb.



# Müdafiə naziri bir neçə hərbi hissənin döyüş hazırlığını yoxlayıb



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, yanvarın 2-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Quru Qoşunların tank və artilleriya hərbi hissələrində olub.*

Müdafiə naziri burada şəhidlərin xatirəsinə ucaldılan abidəni ziyarət edərək önünə gül dəstələri qoyub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrin silahlanmasında olan tank və artilleriya qurğularına baxış keçirilib, döyüş heyətlərinin nəzəri və praktiki bilikləri, habelə döyüş hazırlığı yoxlanılıb.

General-polkovnik Zakir Həsənov hərbi hissənin simulyasiya mərkəzinin tədris-maddi bazası ilə tanış olub, müvafiq göstərişlər verib.

Sonra müdafiə naziri və nazirliyin digər rəhbər heyəti Hərbi Hava Qüvvələrinin pilotsuz uçuş aparatları (PUA) hərbi hissəsinə gəlib.

PUA-lara baxış keçirən müdafiə naziri onların texniki vəziyyəti ilə maraqlanıb, heyətlərin hazırlıq səviyyəsini yoxlayıb.

Müdafiə naziri ziyarət etdiyi hərbi hissələrin şəxsi heyətinin hazırlığını yüksək qiymətləndirib və döyüş hazırlığında fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.







General-polkovnik Zakir Həsənov hərbi hissələrdə yaradılan şəraitlə tanış olub, şəxsi heyətin xidməti və sosial qayğıları ilə maraqlanıb, onlara 2023-cü ildə xidmətlərində uğurlar arzulayıb.

Nazir yeni tədris dövründə təlimlərin daha səmərəli keçirilməsi, hərbi qulluqçuların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanması ilə bağlı vəzifəli şəxslər qarşısında müvafiq tapşırıqlar qoyub.

# Səfərbərlik təminat bazasının döyüş hazırlığı yoxlanılıb

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Quru Qoşunlarının səfərbərlik təminat bazasında olublar.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə nazirliyin rəhbərliyi təminat bazasının ərazisində ucaldılan Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, xatirəsini dərin ehtiramla yad edib.

Müdafiə naziri bazanın silahlanmasında olan artilleriya vasitələrinə, döyüş və avtomobil texnikasına baxış keçirib, onların texniki vəziyyəti ilə maraqlanıb və heyətlərinin hazırlıq səviyyəsini yoxlayıb.

Silahlanmada olan silah və döyüş texnikasına təhlükəsizlik qaydalarına əməl edilməklə vaxtında texniki xidmətin göstərilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

Şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirən general-polkovnik Zakir Həsənov yeni tədris dövründə ehtiyatda olan hərbi vəzifəlilər ilə müxtəlif ixtisaslar üzrə keçirilən toplanışların, çöl çıxışlarının və döyüş hazırlığı məşğələlərinin səmərəliliyinin artırılması ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.







## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğunun birgə tədbirlər planı imzalanıb

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı iləs təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"na əsasən 2023-cü ildə terrorçuluq və ekstremizmin bütün təzahürlərinin qarşısının alınması sahəsində Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bundan başqa cari il ərzində Azərbaycan Ordusunda hüquq qaydasının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması sahəsində də hər iki qurum arasında birgə tədbirlər planı imzalanıb.

Plana əsasən müxtəlif kateqoriyalı hərbi qulluqçularla keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

2023-cü il ərzində Müdafiə Nazirliyinin tabeliyindəki qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində təşkil olunacaq görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlərin həyata keçirilməsi planlaşdırılır.

# Gender bərabərliyinin daimi olması vacibdir

***Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin nümayəndələri Azərbaycan Ordusunda hərbi qulluqçuların və mülki işçilərin maarifləndirilməsi, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə hərbi hissələrdə görüşlər keçirdi.***

Şöbə müdiri Zümrüd Səmədova bu mövzuda görüşlərin keçirilməsinin əhəmiyyətindən söz açaraq bildirdi ki, gender bərabərliyi olan cəmiyyət qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir. "Belə cəmiyyətdə kişilərlə və qadınların hüquqları bərabər səviyyədə müdafiə olunur. Gender bərabərliyinin təşviqi daimi məsələdir və onun davamlı aparılması vacibdir.

Azərbaycan qadınının milli-mənəvi dəyərlərimizin yaşadılmasında göstərdiyi xidmətlər müqayisəolunmazdır. 44 günlük Vətən müharibəsində Azərbaycan qadını həm arxa, həm də ön cəbhədə üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldi. Zəfərin qazanılmasında ordu quruculuğunun bütün sahələrində fəaliyyət göstərən qadınlarımızın rolu danılmazdır. Vətən qarşısında vəzifə borclarını şərəflə yerinə yetirən xanımlar ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpasında yaxından iştirak etdi. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Biz də şöbə olaraq Vətən müharibəsində şəhid ailələrinin yanında olduq, bu gün də onların problemləri ilə maraqlanır, mənəvi dəstəyimizi əsirgəmirik. Gender bərabərliyi, eləcə də şəxsi heyətin insan hüquqları və azadlıqlarının təminatı sahəsində görülən işlər Azərbaycan Respublikasının Konstitusiyası əsas götürülərək demokratik dövlətlərin təcrübələri öyrənilməklə daha da təkmilləşdirilir".

Mövzu ilə bağlı geniş məlumat verən şöbə müdiri bildirdi ki, gender bərabərliyinin təmin edilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin daim prioritet istiqamətlərindən biri olub. "Ulu Öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoyub. Ölkəmiz bu sahədə dünyanın inkişaf etmiş dövlətləri sırasında qərarlaşıb. Ötən illər ərzində qadınlarla bağlı hüquqi baza daha da təkmilləşdirilib. Dövlət başçısının rəhbərliyi ilə sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə nail olub".

Şöbə müdiri Azərbaycanda qadınların hüquqlarının etibarlı müdafiəçisinə çevrilən, onların cəmiyyətdə layiqli yerinin təmin olunmasına çalışan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu hərəkatın ön cərgəsində olduğunu qeyd etdi. Son illərdə Azərbaycanın birinci xanımının təşəbbüsü və dəstəyi ilə Bakıda keçirilən beynəlxalq miqyaslı tədbirlərdə gender bərabərliyinin təmini, qadın hüquqlarının qorunması, qadınlar arasında savadsızlığın aradan qaldırılması kimi məsələlər prioritet müzakirə mövzusu olub. Müstəqil, demokratik respublikamızda qadın hüquqları bu gün etibarlı şəkildə qorunur, yüksək səviyyədə müdafiə edilir. İştirakçısı olduğum "Qadınlar, sülh və təhlükəsizlik" mövzusunda konfransda Azərbaycan Ordusunda qadınların xidməti və rolu haqqında çıxışım çox yüksək qiymətləndirildi. Hətta konfrans bitdikdən sonra Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp mənə yaxınlaşaraq Müdafiə Nazirliyində belə bir şöbənin fəaliyyətindən və gördüyü işlərdən məmnun olduğunu bildirdi.

Şöbə müdiri Azərbaycan Ordusunda fəaliyyət göstərən Qadınlar və Hərbi Qulluqçuların ailələri ilə iş üzrə şöbənin bu günə kimi fəaliyyətində qarşısına qoyduğu məqsədlərdən də söz açdı. Bildirdi ki, orduda çalışan qadın heyətinin hüquqlarının müdafiəsində dururuq, problemlərinin həlli istiqamətində səmərəli işlər aparırıq, hərbçi ailələrinə mənəvi dəstək oluruq, şəhid ailələrinin problemləri ilə yaxından maraqlanırıq, onlara kömək etməklə yanaşı, gələcəkdə sosial həyata inteqrasiyasında da fəal iştirak edirik.

Keçirilən görüşlərdə Azərbaycan Ordusunda gender bərabərliyinin və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində geniş, məzmunlu çıxışlar edildi. İnkişaf etmiş ölkələrin ordularında insan hüquqları və gender bərabərliyi sahəsində həyata keçirilən fəaliyyətlər barədə məlumatlar verildi, diskussiyalar, müzakirələr aparıldı. Xüsusilə qadın hərbi qulluqçuları və mülki əməkdaşları maraqlandıran suallar cavablandırıldı.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# General-mayor Polad Həşimovun xatirəsi yad edilib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yanvarın 2-də Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğum günündə Müdafiə Nazirliyinin bir qrup zabiti, Vətən müharibəsinin iştirakçıları, ictimaiyyətin nümayəndələri, eləcə də Milli Qəhrəmanın ailə üzvləri onun məzarını ziyarət ediblər.*

General-mayor Polad Həşimov 2 yanvar 1975-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailələri ilə birgə Sumqayıt şəhərinə köçdüyündən Sumqayıt şəhər 28 və 34 nömrəli məktəblərdə orta təhsil alıb. Sonra o, taleyini hərbçi peşəsinə bağlamaq üçün indiki Heydər Əliyev adına Hərbi İnstituta daxil olub və bu xüsusi təyinatlı təhsil ocağını müvəffəqiyyətlə bitirib.

Taqım komandirliyindən "general-mayor" ali hərbi rütbəsinədək yüksələn Polad Həşimov, cəbhə bölgələrində xidmət edərək qarşıya qoyulmuş əmr və tapşırıqların layiqincə yerinə yetirilməsi üçün səy göstərib.

2016-cı ilin Aprel döyüşləri zamanı ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Azərbaycan Ordusu qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 aprel 2016-cı il tarixli sərəncamına əsasən Polad Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.



2019-cu il iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilmişdir.

P.Həşimov 14 iyul 2020-ci il tarixdə Tovuz rayonu istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Anım mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhidin məzarı üzərinə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı birgə tədbirlər planı imzalayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında "Ombudsman təsisatı hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar 2023-cü il üçün birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana əsasən cari il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində keçirilməsi nəzərdə tutulan tədbirlərin yeri, vaxtı və məsul şəxslər müəyyənləşdirilib.

Keçiriləcək tədbirlərdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və ətraflı fikir mübadiləsi aparılacaq.

*Sıra hazırlığı*

## Bu əsgərlər də nümunəvi xidmət edəcəklər



*Komando hərbi hissəsində silahla sıra hazırlığı məşğələsi keçən şəxsi heyətin addım səsləri ətrafdakı yüksəkliklərdə əks-səda verirdi. Məşğələni izlədikcə qəlbimizdə xoş duyğular oyanır, onların eyni anda addım atmaları və sinxron hərəkətləri orduya olan sevgi və məhəbbətimizi daha da artırırdı.*

Şəxsi heyətə məşğələ keçən zabit müxtəlif komandalar verirdi. "Silahı ayağa al!", "Silahı qayışa al!", "Silahı arxaya al!", "Silahı sinəyə al!". Zabitin gur səsində bir qürur, bir iftixar vardı. Əsgərlər verilən əmrləri eyni anda çevik hərəkətlərlə yerinə yetirirdilər, sıra meydanında inamla addımlayırdılar. Hərəkətlərindən hiss olunurdu ki, hərbçilər peşəkardırlar. Buna görə də tapşırıqları heç bir çətinlik çəkmədən yerinə yetirirlər. Zabit onların hər addımını nəzarətdə saxlayır, şəxsi heyətə zəruri məsləhət və tövsiyələr verirdi.

Məşğələyə rəhbərlik edən mayor Gündüz Mirzəyev dedi ki, hərbçilərimizin təkcə sıra deyil, döyüş hazırlığı da yüksək səviyyədədir. Onlar istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə hazırdırlar. Nə qədər hazırlıqlı olsalar da, döyüş hazırlığı planına uyğun olaraq daim təlimlər keçib hazırlığımızı artırırıq. Hazırlığımız nə qədər yüksək olarsa, tapşırıqların icrası bir o qədər asan olar. Çünki yüksək döyüş hazırlığı zəfərə, qələbəyə zəmin yaradır.

Söhbətimizi gizir Şükür Əliyevlə davam etdirdik. Şükür dedi ki, hazırda ömrümün ən yaddaqalan anlarını, işğaldan azad olunmuş ərazidə xidmət etməyin qürurunu yaşayıram. "Vətənə övladlıq borcumu şərəflə yerinə yetirməyə çalışıram. Bu səbəbdən hərbi biliklərə və döyüş vərdişlərinə mükəmməl yiyələnmişik, hazırlığımız yüksək səviyyədədir".

Gizir Röyal Cəfərovla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuşlar Azər Əhmədovla, Tural Alyarlıyla, Dilavər Fərziyevlə, Xəqani Məmmədovla, Mərhəmət Səmədovla və Nicat Hüseynovla da söhbət etdik. Onların ordumuzla, hərbi xidmətlə bağlı ürək sözlərini dinlədik. Hərbçilərin söhbətlərindən vətənpərvər olduqları açıq-aydın duyulurdu. Vətən belə oğullarla həmişə öyünüb, bundan sonra da öyünəcək.

Silahla sıra hazırlığı məşğələsi öz axarı ilə davam edirdi. Hərbçilərin ayaqlarından eyni anda qopan ritmik səslər onları yeni-yeni uğurlara səsləyirdi. Zabit və əsgərlərimizin gündən-günə yüksələn hazırlığına güvənib inamla demək olar ki, bu əsgərlər də nümunəvi xidmət edəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ordu quruculuğu yüksək səviyyədə inkişaf etdiriləcək




*Tarixi gerçəkliklər təsdiqləyir ki, işğalçılıq məğlubiyyətə məhkumdur. Hitler Almaniyasının başladığı İkinci Dünya müharibəsi, ABŞ-ın Vyetnamda, SSRİ-nin Əfqanıstanda apardığı təcavüzkar müharibələr sonda yenə də ədalətin qələbəsi ilə nəticələndi. Ermənistanın siyasi niyyətləri Aqambekyanın "Humanite" qəzetinə müsahibəsindən neçə on illər əvvəllərlə səsləşirdi. Ermənilik niyyəti işğalçılıq niyyəti idi və bu niyyət Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı ədalətsiz müharibəyə səbəb oldu. Havadarlarının siyasi və hərbi dəstəyi ilə Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etdi.*

Azərbaycanın sülh istəyinə qarşı güc göstərməklə yeni ərazilər işğal etmək məqsədi ilə irimiqyaslı təxribatlar törədir, işğal etdiyi ərazilərdən hücumlar edirdi. Azərbaycan Ordusunun hissələri bu təxribatların, hücumların qarşısını qətiyyətlə alırdı. Ermənistanın danışıqlardan yayınmasına, regionda status-kvonu saxlamaq istəyinə görə döyüşlər labüd idi. Ordumuz 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı hücumunun qarşısını aldı, Ali Baş Komandanın əmri ilə əks-hücuma keçdi. Bu, İkinci Qarabağ müharibəsi idi...

Azərbaycan Ordusu düşmənin sədlərini darmadağın etdi, döyüşə-döyüşə qələbələr qazanırdı.

İkinci Qarabağ müharibəsində, mahiyyəti etibarilə Vətən müharibəsində ordu hissələrimiz Ali Baş Komandanın sərkərdəliyi ilə düşməni sıxışdırır, əlverişli strateji mövqeləri, yaşayış məntəqələrini azad edirdi. Döyüşlərdə artilleriyaçılarımız düşmənin dayaq məntəqələrini, qruplaşmalarını, mövqelərini, döyüş texnikalarını, canlı qüvvəsini məhv edirdilər. Artilleriya döyüşləri düşmənin döyüş nizamını da pozurdu, ona ağır itkilər verirdi. Atılan mərmilərimiz piyadalarımızın döyüşləri üçün əlverişli şərait yaramaqla döyüşçülərin döyüş əzmini də yüksəldirdi, qələbə ruhunu da.

2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş zabitlərimiz şəxsi heyətə həmin döyüşlərin təcrübəsini də aşılamışdılar. Bu, onların döyüş əzmini daha da yüksəltmişdi.

Hərbi hissəmiz döyüşlərə Füzuli istiqamətindən başladı. Hərbi qulluqçularımız İkinci Qarabağ müharibəsinə kimi öyrəndiklərini, təlimlərdə təkmilləşdirdiklərini döyüşlərdə bacarıqla, şəraitə müvafiq səviyyədə tətbiq edirdilər...

Hadrut istiqamətində ağır döyüşlər getdi. Düşmən Hadrutda müqavimət göstərir, buranı sonrakı mövqelər sisteminə sipər bilirdi. Biz döyüşən ordumuzu atəş dəstəyi ilə komandanlığın əmri əsasında təmin edirdik. Döyüşlər bir neçə gün davam etdi. Oktyabrın 16-da gecə yarı düşmən mövqelərindən geri çəkildi. Onda top komandirlərindən biri maraqla soruşdu: "Komandir, görəsən, düşmən neçə döyüş texnikasını salamat çıxarda bildi, neçə düşmən qaçdı". Bu, sual deyildi, mövqe qələbəsinə görə yaranan sevincin təzahürü idi. Artilleriyaçılarımız belə sevinci Zəfərə kimi çox yaşadılar. Divizionlarımız Cəbrayıl, Zəngilan, Xocavənd döyüşlərində də iştirak etdilər. Bu ərazilərin işğaldan azad edilməsində artilleriyaçılarımızın da döyüş əzmini, döyüşlərini, qələbə ruhunu bu gün qürurla yaşadırıq, yaşayırıq.

Şükürbəyli uğrunda döyüş gedirdi. Bizə piyadalarımız üçün əlverişli döyüş şəraiti yaratmaq əmr edilmişdi. Əmr böyük məsuliyyətlə yerinə yetirilirdi. Düşmən divizionun yerini müəyyənləşdiribmiş. Döyüşün içində bizim artilleriyaçılar da atəşə məruz qaldılar. Komanda məntəqəsinə zərbə endirilən anda düşmənin artilleriya mərmisi ilə Rəvan Şahmuradov şəhid oldu. Artilleriyaçılar döyüşü qətiyyətlə davam etdirdilər. Döyüşdən sonra tuşlayıcının dediklərini bütün heyətin niyyəti bildik: Elə bilirdik ki, Rəvan da sıramızdadı... Vətən müharibəsində Azərbaycan əsgərinin bu mənəvi hazırlığı da qələbəni şərtləndirən amillərdən biri oldu...

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun Zəfəri ilə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi. Bu Zəfər təkcə işğalı sonlandıran Zəfər kimi tarixləşmədi, həm də bəşəriyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamının gerçəkliyinə bir daha əmin oldu...

Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişəm. Bu təltifləri Vətən müharibəsində qazanılan Zəfərin qüruru bilirəm...

2022-ci il ordu quruculuğumuzda mühüm nailiyyətlərlə tarixləşdi. Ötən ilki təlimlərin mahiyyətinin zəmanəti ilə əminliklə deyə bilərik ki, Azərbaycanda ordu quruculuğu dövlət başçısının tövsiyələri əsasında bundan sonra daha yüksək səviyyədə inkişaf etdiriləcəkdir. Əminəm ki, hərbi qulluqçularımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ili daha yüksək nailiyyətlərlə tarixləşdirəcəklər...

**Polkovnik-leytenant**
**Vasif HƏSƏNOV**
**"N" hərbi hissəsi**

# "Uşaqlara sevinc bəxş edənlərə minnətdarıq"



*Yeni il ərəfəsində ən çox sevinənlər bəlkə də uşaqlardı. Çünki onları yeni il ərəfəsində - soyuq qış günlərində, yolka şənlikləri gözləyir. Yolka şənliklərində uşaqlar Şaxta baba ilə, Qar qızla, həmçinin başqa nağıl qəhrəmanları ilə görüşürlər. Onlarla birlikdə rəqs edib, oxuyur və vaxtlarını xoş keçirirlər.*



Ölkəmizdəki mədəniyyət ocaqlarında həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, həm də Yeni il münasibətilə yolka şənlikləri keçirildi. Uşaqlar Yeni ili fərəhlə, sevinclə qarşıladılar.

Yeni il və Dünya Azərbaycanlıların Həmrəyliyi Günü münasibətilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə Azərbaycan Texniki Universitetində də bayram şənliyi təşkil olunub. Komitənin sədri Zakir Müslümov bu barədə söhbət açaraq dedi:

- Hərbi hissə və birləşmələrdə, həmçinin, tədris ocaqlarında çalışan mülki işçilərə qayğı Komitənin diqqət mərkəzindədi. Biz təkcə işçilərin özlərinin deyil, onların övladlarının da qayğısına qalmağa çalışırıq. Bunun üçün müxtəlif tədbirlər həyata keçiririk. Məramı, məqsədi uşaqlara qayğı olan belə tədbirlərdən biri də Yeni il şənliklərinin təşkil edilməsidir. Komitəmizin təşəbbüsü və vəsaiti hesabına Azərbaycan Texniki Universitetinin idman zalında Yeni il şənlikləri keçirildi. Uşaqlar burada oynadılar, şənləndilər, nağıl qəhrəmanları ilə görüşdülər. Şənlikdən sonra uşaqlara hədiyyələr verildi. Bu tədbirlərin yüksək səviyyədə keçirilməsi ilə əlaqədar işçilərə doqquz mindən çox bilet paylanmışdı. Şəhid və qazi ailələrini də daim diqqət mərkəzində saxlayırıq. Dekabrın 26 və 27-də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə onların övladlarının iştirakı ilə tədbir keçirildi. Bayram ovqatına köklənmiş uşaqlar burada xoş anlar yaşadılar. Komitəmizin əsas məqsədi üzvlərinə diqqət və qayğı göstərməkdən ibarətdir.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə Yeni il şənliyinin keçirildiyi Azərbaycan Texniki Universitetində hiss olunurdu ki, ali təhsil ocağının idman zalında şənliyin yüksək səviyyədə keçirilməsi məqsədilə hərtərəfli şərait yaradılıb. İdman zalının geniş, işıqlı dəhlizinə daxil olanda musiqi sədaları eşidilirdi. Növbəti seansın başlamasına dəqiqələr qalırdı. Arada yaranmış vaxtdan istifadə edib Yeni il şənliklərinin keçirilməsinin təşkilatçıları ilə söhbət etdik. Onlar uşaqlar üçün keçirilən Yeni il şənliklərindən söz açaraq dedilər ki, tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb. "Şənliklərin maraqlı, şən keçməsini təmin etmək məqsədilə peşəkar aktyorlar Şaxta baba, Qar qız, Dovşan, Cırtdan və başqa nağıl qəhrəmanlarının obrazlarını bacarıqla yaradırlar. Ona görə də uşaqlar şənliyə böyük maraqla baxır, aktyorların ifalarını alqışlarla qarşılayırlar. İnanıram ki, Yeni il şənlikləri uzun müddət uşaqların yaddaşlarında qalacaq".

Qısa söhbətdən sonra şənliyin keçirildiyi zala daxil olduq. Valideynlər onlar üçün ayrılmış yerlərdə oturub tədbiri izləyirdilər. Şənliyə gəlmiş uşaqlar hündür yolkanın ətrafında rəqs edir, şənlənirdilər. Uşaqların nağıllardan tanıdıqları və sevdikləri "Dovşan", "Cırtdan" onlara yaxınlaşıb salamlaşdılar. Onların üz-gözündən sevinc və təbəssüm süzülürdü.

Bir azdan uşaqlar Şaxta Babanı səslədilər. Onların səsini eşidən Şaxta baba gəldi. Qarlı dağlardan aşıb gəldiyini və çoxlu hədiyyələr gətirdiyini dedi. Sonra yolkanın işıqlarını yandırdı. Şənlik keçirilən zal işığa, nura boyandı. Bu işıq, bu nur bütün uşaqların ürəyinə düşdü. Şaxta Baba uşaqlara qoşulub rəqs etdi. Gələcəyimiz olan uşaqların şənliyi ruh yüksəkliyi ilə davam etdi.

"N" hərbi hissəsində çalışan Elçin Qoşnalıyev də uşaqlarını şənliyə gətirən valideynlərin sırasında oturmuşdu. Elçin dedi ki, uşaqlar üçün belə şənliklərin təşkil edilməsinə çox yüksək dəyər verirəm. Övladlarım Elmir də, Kənan da rəqs edən uşaqların arasındadırlar. Onlar böyük sevinc içindədirlər. Uşaqlara sevinc bəxş edənlərə dərin minnətdarlığımı bildirirəm.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# İki ömür - iki şəhid

***Müstəqillik anlayışını sözlə ifadə etmək olduqca çətindir. Mübarizə aparanda nə uğrunda mübarizə apardığının fərqinə varırsan... Müharibə mübarizənin silahlı formasıdır və Azərbaycan əsgəri 30 il düşmən tapdağı altında olan torpaqlarımızı azad edərək, bizə qələbə hissini yaşatdılar. Şanlı tariximizə qızıl hərflərlə yazılan bu günün canlı şahidi olduğumuz üçün çox şanslıyıq. Azərbaycan bu gün dünyada söz sahibi olan ölkələrdən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətlə deyib: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Dövlət başçımızın qətiyyəti və siyasi iradəsi ordumuzun gücünü artırdı, şəxsi heyətin döyüş hazırlığını yüksəltdi. Bu, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi və Azərbaycan ərazi bütövlüyünü bərpa etdi.***



Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib. Son bir neçə ildə Azərbaycanın dövlət büdcəsindən kifayət qədər vəsaitlər məhz ordunun inkişafına, onun təchizatının yüksəldilməsinə ayrılır. Qafqazda ən güclü ordu olan Azərbaycan Ordusu Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarından ibarətdir. Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordulardan biridir. Bu ordu İkinci Qarabağ müharibəsində qələbə qazandı.

2016-cı ilin Aprel döyüşləri bizə Qarabağa gedən yolu göstərdi.

Aprel döyüşləri (2016-cı il) 44 günlük Vətən müharibəsinin (2020-ci il) başlanğıcı idi. Aprel döyüşləri də tarixdir. Bizim Qarabağa qayıdışımızın təməli Aprel döyüşlərində qoyuldu. Bu döyüşlər ordumuzun gücünü, yenilməzliyini təsdiqlədi. İkinci Qarabağ müharibəsində qazanılan Zəfər ruhumuzun qələbəsi oldu.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan tarixinin şərəf, şöhrət, zəfər salnaməsidir. 27 sentyabrda başlayan Vətən müharibəsilə biz Qarabağa qayıtdıq. Vətən müharibəsi tarixdir və fəxrlə deyirik ki, Qarabağ Azərbaycandır! Bunu təkcə biz demirik, dünyanın bəşəri dövlətləri də deyir.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyib: "Azərbaycan Bayrağı sadəcə bayraq deyil. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət, eyni zamanda, Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun."

Azərbaycan əsgəri bu bayrağın müqəddəsliyini tarixləşdirən döyüşlərlə torpaqlarımızı işğaldan azad etdi. Bu bayrağı Vətənin ruhu bilənlərimiz gözü yolda qalanların, ata yolu gözləyən körpələrin, ömrü paralananların ümidini gerçəkləşdirmək üçün döyüşdülər...

Şəhidlik zirvəsinə yalnız müqəddəs amallar uğrunda vuruşan, qorxu hissinin nə olduğunu bilməyən, Vətən və xalq uğrunda canını fəda etməkdən çəkinməyən cəsarətli igidlər yüksələ bilərlər. Onlar ölmürlər, ölümləri ilə əbədilik qazanırlar. Şəhidlik ömür payını Vətən üçün, dövlət üçün, xalq üçün yaşayanların bu



ömrü sonda - son nəfəsdə gələcək nəsillərin xoşbəxtliyi naminə qurban verməkdir.

Vətən üçün ölümə gedənlərə qəhrəman deyilir. Onların yoxluğu bizim üçün çətin olsa da, adlarını tarixə həkk edən qürur ömür fəlsəfəsi olur. Vətən yolunda dastana dönənlər Vətən qədər uca və müqəddəs olmaqla qəlbimizdə yaşayırlar. Vətənini bütöv, xalqını xoşbəxt edən zəfərimizin - böyük qələbəmizin şəhidləri, sizi qürur və sevgi ilə anırıq, siz həmişə ehtiramla anılacaqsınız.

"Həyat var ki, ölüm qədər zəhərli, Ölüm var ki, həyatdan da dəyərli" misraları həyatın mahiyyətini dərk etmək üçün insanın düşüncələrini öz məcrasına yönəldir. Onda xalqın ruhu dönməzləşir. Dönməz ruh dövlətçiliyin yolgöstərəni, Vətən naminə dünyadan köçən insan millətin ruhunun zərrəsi olur.

Ölümü ilə Zəfər tarixinin başlanğıcını yazan, Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimov, Azərbaycanın Milli Qəhrəmanı polkovnik İlqar Mirzəyev, Elnur Vəliyev, Muxtar Qasımlı, Rüfət Gözəlov, Fəqan Zalov, Malik Xeyirbəyov, Cəbrayıl Dövlətzadə, Elcan Məmmədov, Əmrah Xəlilzadə, Seymur Cabbarov, Cəmil Həşimli, Fəxri Qəribzadə, Elməddin Hüseynzadə... Qazilərimiz Afiyəddin Əliyev, Tərlan Nəbiyev, Polad Rzayev, Fərhad Abbasov, Pərvin Abdullayev, Elnur Əkbərov və digər qəhrəmanlarımızın... həyatı, müqəddəs amallarla Vətən uğrunda döyüşləri, göstərdikləri şücaət, qəhrəmanlıq hər bir azərbaycanlı üçün örnəkdir. Azərbaycan gənclərinin rəşadəti sayəsində əldə olunan bu Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Onları tanımaq, tanıtmaq, xatirələrini əbədiləşdirmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur

Vətən müharibəsi şəhidləri gizir Cəmil Həşimli və kiçik miçman Fəqan Zalov da belə bir döyüşçü ömrü yaşadılar....

Cəmil Həşimli 1995-ci il 11 avqustun 11-də Kürdəmirdə anadan olub. 2002-ci ildə 3 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəbi 2013-cü ildə bitirib. Həmin ildə hərbi xidmətə Astara Sərhəd Xidmətinə göndərilib. Cəmil 6-cı sinifdən maşın təmiri ustasının yanına sənət öyrənməyə gedib. 2015-ci ilin aprelində hərbi xidmətdən qayıtdıqdan sonra yenidən ustasının yanına gedib, sənətini davam etdirib. 2016-cı ilin Aprel döyüşlərində artıq o, qardaşı ilə birgə gizir və zabit kimi xidmət edirdilər. Cəmil gizir rütbəsində xidmətə başlayıb. 2020-ci ilin fevralından Türkiyədə Xüsusi Təyinatlılar qrupunda təlimi müvəffəqiyyətlə bitirib sertifikatla təltif olunub. İkinci Qarabağ müharibəsinə Füzuli rayonunun Əbdürrəhmanlı kəndindən başlayıb. Oktyabrın 5-i şəhid olub. Oktyabrın 6-sı Kürdəmir Şəhidlər xiyabanında dəfn edilib. Cəmilin yoldaşları onun qorxmaz, cəsur döyüşçü olduğunu bildirirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə III dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallarına layiq görülmüşdür.

Simuzər ana şəhid oğlu Cəmilin şəkillərinə baxıb belə yad edir: "Bu mənəm... Şəhid gizir Həşimli Cəmilin anası. Vüqarlı, əzəmətli, vətənpərvər bir oğulun anası... Bu mənəm, həmişəki illərin Simuzəri... Ayaqları üstündə illərdi duran ana... Bu mənəm... Şəhid anası...".…

Fəqan Zalov 1997-ci il aprelin 1-də Sabirabad rayonunun Qalaqayın çadır şəhərciyində dünyaya göz açıb. 2 qardaş 1 bacının sonuncusudur. 2003-cü ildə Füzuli rayonunun Babı kəndində Markis Hacıyev adına tam orta məktəbin 1-ci sinfində oxuyub. İdmanın sərbəst güləş növü ilə məşğul olub, nailiyyətlər qazanıb. Təhsilini 2010-2014-cü illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayonu Alı Mustafayev adına Zilanlı kənd orta məktəbində davam etdirib. 2015-ci ildə hərbi xidmətə çağırılıb, artilleriyaçı olub. 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. 2017-ci ilin yanvarında xidmətini bitirib. Vətən sevgisi onu yenidən hərbi xidmətə qaytarıb. 2017-ci ilin dekabrında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kursunu bitirib.

Gözətçi Gəmilər Divizionunda xidmət edib. Xəzəryanı dövlətlərin iştirakı ilə keçirilən "Dəniz kuboku" yarışlarında fəal iştirak edib.

2018-ci ilin martından 2018-ci ilin dekabrınadək "N" hərbi hissəsinin nəzdində Xüsusi Təyinatlı kursu bitirərək kiçik miçman rütbəsi alıb. 2019-cu ilin martından Xüsusi Təyinatlı Dəstədə xidmət edib. Vətən müharibəsində hərbi hissənin tərkibində kəşfiyyatçı kimi döyüşlərə qatılıb. Döyüşlərdə dəfələrlə düşmənin mövqelərinin, sığınacaqlarının məhv edilməsində fəal iştirak edib. Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Şükürbəyli kəndlərinin azad olunmasında mərdlik və şücaət göstərib. Oktyabrın 10-da Əmirvarlı yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə ayağından qəlpə yarası alıb. Füzuli rayon hospitalında, sonra Hacıqabul rayon xəstəxanasında müalicə olunub. Ayağındakı qəlpəni çıxarmağa qoymayıb. Yenidən döyüş yoldaşlarının yanına qayıtmaq istədiyini bildirib. Yaralanması ilə əlaqədar verilən məzuniyyətdən imtina edərək döyüş yoldaşlarının yanına qayıdıb. Füzulinin, Cəbrayılın, Qubadlının, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, xüsusi rəşadət göstərib. Döyüş yoldaşının dilindən: "Qızğın döyüşlərin birində biz düşmənin yerləşdiyi mövqeyi almışdıq, növbəti mövqe uğrunda döyüş gedirdi. Mən düşmənin mövqelərinə qumbaraatandan atəş açırdım. Mərmim qurtardı. Fəqan güllələr altında sürünə-sürünə mənə mərmi gətirdi".

Fəqan Zalov Xocavənd rayonunun bir çox adsız yüksəkliklərinin azad edilməsində iştirak edib. Noyabrın 9-da Qızıl qaya əməliyyatında qəlpə yarası alıb. Qəlpə boyun hissəsindən girib ağciyərini və ürəyini parçalayıb. Kiçik miçman Fəqan Zalov şəhid olub. Döyüş yoldaşlarının dediklərindən: "Fəqan dedi ki, yaralandım, biz onu arxa tərəfə çıxardıq. Onu yerə uzatdıq, gözlərini yumdu. Simasında təbəssüm vardı...". Kiçik miçman Fəqan Zalov Füzuli rayonu Babı kənd qəbiristanlığında dəfn olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Bizim hamımızın bir Vətəni var, bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Milli-mənəvi dəyərlər millətin varlığını təsdiq edən əsas amillərdən biri kimi mənəviyyatla sıx bağlıdır. Xüsusən biz gənclərin, gələcək nəslin üzərinə daha böyük missiya düşür. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında da fəal iştirak ediblər, bu gün də edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq, Vətən uğrunda vuruşurlar. Şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbəmizi şərtləndiriblər". Şəhidlərimizin ruhunu yaşatmaqla Vətənin müqəddəsliyinin cəfakeşi olan gənclərimiz bütün şəhidləri əzizi bilir... Biz gənclər güclü Azərbaycanın gələcəyiyik.

Bir türk şairinin bir şeirinin bir misrasını xatırlayıram: Bu Vatan kimin? Vətən onu varlığıyla sevənlərindi, Vətən onu yad nəfəsindən qoruyanlarındı, onun hər qarışının müqəddəsliyini qorumağı ömür üçün şərt bilənlərindi. Cəmil Həşimli də, Fəqan Zalov da ömür payını belə yaşadı, bu amal uğrunda şəhid oldu; müqəddəs Vətən naminə müqəddəs şəhidlik - hər birimiz bu düşüncələri varlığımıza hopdurmuşuq...

**Mənzər SÜLEYMANOVA**
**Bakı şəhəri**

## Fiziki hazırlıq

# “Fiziki hazırlıq məşğələlərinə hər birimiz böyük maraqla qatılırıq”

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin bütün sahələrində aparılan uğurlu islahatların nəticələri ordu quruculuğuna da öz müsbət təsirini göstərib. Ordumuzun güclü ordular sırasında olmasının əminliyini Vətən müharibəsində qazanılan Zəfərlə bir daha yaşadıq. Şübhəsiz ki, bu Zəfərə ordumuzun maddi-texniki bazasının gündən-günə güclənməsi, keçirilən müxtəlif təyinatlı təlimlərin, məşğələlərin, həmçinin şəxsi heyətin fiziki və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olması hesabına nail olunub. Güclü ordunu səciyyələndirən mühüm amillərdən biri də şəxsi heyətin fiziki cəhətdən güclü və sağlam olmasıdır. Bu da çox mühüm amildir. Buna görə də yuxarı komandanlıq şəxsi heyətin fiziki hazırlığını həmişə diqqət mərkəzində saxlayır. Bu, sistemli şəkildə həyata keçirilir. Hərbi qulluqçular fiziki hazırlıqlarını günün nizam qaydalarına uyğun olaraq idman saatlarında möhkəmləndirirlər. Bununla yanaşı, müxtəlif idman yarışları da təşkil olunur. Beləcə, fiziki hazırlıq dərsləri əsgərlərin sağlam, iradəli və dözümlü olmalarını təmin edir. Komandirlərin qarşısında qoyulan əsas vəzifələrdən biri də Vətənin müdafiəsində dayanan hərbi qulluqçuların fiziki hazırlığına ciddi nəzarət etməkdir.

"N" hərbi hissəsində də şəxsi heyətin fiziki hazırlığı diqqət mərkəzində saxlanılır. Məşğələ rəhbəri gizir Cabbar Cəfərov bildirdi ki, fiziki hazırlıq məşğələləri günün nizam qaydasına uyğun olaraq, gün ərzində iki dəfə - səhər və axşam keçirilir. "Hərbi hissəmizdə müasir standartlara cavab verən idman şəhərciyi yaradılıb. Burada idmanın bir çox növü ilə məşğul olmağa şərait var. Əsgərlərin döyüş hazırlığının bir hissəsi kimi fiziki hazırlığa da xüsusi



diqqət ayrılır. Şəxsi heyətin fiziki cəhətdən güclü və dözümlü olması vacib şərtlərdəndir. Hər hansı döyüş tapşırığının yüksək səviyyədə yerinə yetirilməsi üçün fiziki baxımdan güclü olmaq əsas amillərdəndir. Bundan başqa, idmanla müntəzəm məşğul olmaq əsgərlərimizdə özünə inam və liderlik hisslərini də artırır. Bu da öz növbəsində əsgərin fərdi keyfiyyətlərinin müsbət yöndə inkşafında mühüm rol oynayır. Əsgərlərimizin bir çoxu ordu sıralarına çağırılanadək idmanın müxtəlif növü ilə məşğul olub. Bəziləri respublika və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak ediblər. Hərbi xidmətdə olsalar da, burada da müntəzəm məşq edir, fiziki hazırlıqlarını daha da artırırlar".

Öyrəndik ki, Cabbar da uzun illər idmanın güləş növü ilə məşğul olub. Bir sıra nailiyyətləri var. Hərbi xidmətdə tapşırıqları yerinə yetirməkdə ona əvvəllər idmanla məşğul olmasının böyük kömək olduğunu bildirdi.

Hərbi xidmətə Biləsuvar rayonundan çağırılan əsgər Əli Qasımov hərbi xidmətdən əvvəl idmanın futbol növü ilə məşğul olub. Uşaq vaxtlarından futbola marağı olduğundan valideynləri onun marağına dəstək olmaq üçün rayondakı idman mərkəzinə aparıblar. Keçirilən yarışlarda nailiyyətlər qazanıb. Əli bildirdi ki, fiziki hazırlıq məşğələləri iradəni, gücü, dözümlülüyü artırmaq üçün əsas vasitədir. "Günə fiziki hazırlıq məşğələsi ilə başlamaq gün ərzində gümrah olmağımıza kömək edir. Burada bizim üçün hər cür şərait yaradılıb. Gün ərzində idmanla iki dəfə məşğul oluruq. Fiziki hazırlıq məşğələlərinə hər birimiz böyük maraqla qatılırıq. Bundan başqa həftə sonları bölmələr arasında müxtəlif idman yarışları keçirilir. Hərbi hissədə keçirilən yarışlarda bölməmiz bir neçə dəfə qalib olubdur".

Əsgər Hüseyn Məmmədov da fiziki hazırlıq məşğələlərində çevikliyin, cəldliyin və dözümlülüyün inkişaf etdirildiyini qeyd etdi. "Hərbi xidmətdən öncə mən də həvəskar idmanla məşqul olmuşam. Hərbi xidmətə gəldiyim gündən nizami qaydada idmanla məşğul oluram. Bu gün biz fiziki cəhətdən güclüyüksə, təlimlərdən uğurla çıxırıqsa, bu komandirlərimizin sayəsindədir. Onlar bizə keçdikləri məşğələlərlə güclü və dözümlü döyüşçü, əsl hərbçi kimi formalaşmağın sirlərini öyrədirlər."

Əsgərlərimizdən Ayxan Qurbanov, Fərid Primov, Kamran Umudov və digərləri də hərbi hissədə yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər. Vətən keşiyində olmaqdan qürur duyduqlarını, güclü ordunun güclü əsgərləri olmaq üçün daima öz üzərlərində çalışacaqlarını əminliklə bildirdilər.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# “Xidmətimizlə etimadı doğrultmalıyıq”

*İkinci Qarabağ müharibəsində tarixi zəfər qazanmaqla ordumuz öz gücünü, qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Möhtəşəm qələbə Azərbaycan əsgərinin mübarizliyinin, əzminin, rəşadətinin qələbəsi oldu. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan Ordusunun əsgər və zabitləri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları yüksək döyüş hazırlıqlı hərbi qulluqçu kimi formalaşır, döyüş vərdişlərinə yiyələnirlər.*



Ordu sıralarında nümunəvi xidmət edən, vəzifə borclarının öhdəsindən layiqincə gələn şəxsi heyət qələbənin təminatçısı oldu. Müasir silahların, güclü texnikanın olsa da, iradəli, Vətəninə, dövlətinə bağlı döyüşçülər olmasa, qələbə qazanmaq çətin olur. Azərbaycan Ordusu bu cəhətdən də çox güclüdür. Çünki əsgərlər Vətən torpaqlarını qorumaq kimi müqəddəs vəzifələrin öhdəsindən uğurla gəlir, Azərbaycan əsgəri adını daşımaqla qürur duyurlar. Xidmətləri ilə sübut edirlər ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz və cəsurdur.

"N" hərbi hissəsinin rabitəçi əsgəri Pərvin Hacıyev də Hərbi anda sadiq qalan, nümunəvi xidmət edən əsgərlərimizdəndir. Vəzifə borclarının öhdəsindən layiqincə gəlməyin mənəvi borc olduğunu deyən Pərvin hərbi xidməti haqqında belə dedi: "Ordu sıralarında xidmət edən hər kəs kimi, mən də Vətəni qorumağı özümə şərəf borcu bilirəm. Hərbi hissəyə gələn gündən nizam-intizamlı olmağı, komandirlərin sözündən çıxmamağı, nümunəvi xidmətimlə seçilməyi qarşıma məqsəd qoymuşam. Çünki bizə hər cür şərait yaradılıb, bütün təminatlarımız qaydasındadır. Komandirlərimiz də bizimlə mütəmadi maraqlanır, qayğı göstərirlər. Biz nümunəvi xidmət edirik, həm də şanlı zəfəri ilə dünyaya səs salan qalib Azərbaycan Ordusunun əsgərləriyik. Çalışırıq ki, ordumuzun qüdrətinə, adına-sanına layiq olaq".

Əsgər ixtisası haqqında da danışdı. Döyüşlər zamanı bölmələrin idarə olunmasında rabitənin əhəmiyyətli rol oynadığını bildirdi: "İxtisasımın mahiyyətini yaxşı dərk edirəm. Döyüşlər zamanı komandalar rabitə vasitəsilə ötürülür. Rabitədə hər hansı bir nasazlığın baş verməsinin ağır nəticələri ola bilər. Ona görə də keçirilən dərslərdə fəal iştirak edir, ixtisasımın incəliklərinə dərindən yiyələnməyə can atıram. Təlimlərdə, məşqlərdə həvəslə iştirak edir, praktik vərdişlərimi artırıram. Rabitə vasitəsində kanalların yığılması, komandaların düzgün qəbulu, ötürülməsi və digər tapşırıqları icra etməyi bacarıram".

Nümunəvi xidməti ilə seçilən Pərvinin sözləri ürəkaçandır. Onun qəlbindəki sonsuz Vətən sevgisini hiss etdim. Əmin oldum ki, Pərvin hərbi xidmətini uğurla başa vuracaq. Valideynləri belə oğul böyütdükləri üçün bir daha qürurlanacaqlar. Azərbaycan əsgərinin vətənpərvərliyi, dövlətə sədaqəti, nümunəvi xidməti ailələrimizdə və cəmiyyətimizdə gənclərin milli-mənəvi dəyərlərə bağlılıq və vətənpərvərlik ruhunda formalaşmasının nəticəsidir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə terrorizmin maliyyələşdirilməsinin qarşısını almaq üçün addımlarını davam etdirir




Türkiyə və ABŞ İŞİD terror təşkilatına maliyyə yardımı etdiyi aşkarlanan 5 fiziki və 2 hüquqi şəxsin aktivlərinin dondurulması barədə qərar verib.

Bu barədə məlumatı Türkiyə Xarici İşlər Nazirliyi yayıb.

Bildirilib ki, Türkiyə terrorizmin maliyyələşdirilməsinin qarşısını almaq üçün təsirli addımlar atmağa və bu məsələdə beynəlxalq tərəfdaşları ilə əməkdaşlığa davam edirəcək.

Açıqlamada xatırladılır ki, Türkiyə Xəzinə və Maliyyə Nazirliyi məsələ ilə bağlı ictimaiyyəti məlumatlandırıb.

## ABŞ Ukraynaya yeni hərbi yardım paketi ayıracaq



ABŞ Ukraynaya yeni hərbi yardım paketi ayıracaq.

Pentaqon bu barədə xəbəri təsdiqləyib.

Bildirilib ki, ABŞ Ukraynaya "Bradley" BMP-lərinin də daxil olduğu yeni hərbi yardım paketini elan edəcək.

ABŞ, eyni zamanda, Ukrayna silahlı qüvvələrinə "Bradley" piyada döyüş maşınlarından istifadə etmək və onu saxlamaq üçün təlimlər keçəcək.

## Polşa ABŞ istehsalı olan 116 ədəd “Abrams” tankı üçün müqaviləni təsdiqləyib



Polşa ABŞ-dan 116 ədəd "Abrams" markalı tank alacaq.

Polşanın müdafiə naziri Mariuş Blaşak ABŞ istehsalı olan 116 M1A1 "Abrams" tankının tədarükü üçün müqavilə imzalayıb.

1 saylı Varşava Zirehli Briqadasında keçirilən mərasimdə Blaşak bildirib ki, tanklar ölkənin şərq regionlarında hərbi hissələrdə yerləşdiriləcək. Nazir həmçinin qeyd edib ki, Polşa gələn ilin sonunda təhvil veriləcək M1A2 SEPv3 versiyalı daha 250 "Abrams" tankının tədarükü üçün də razılaşma əldə edib. Müqaviləsi imzalanan 116 tank isə bu il ərzində Polşanın hərbi arsenalına qəbul ediləcək.

ABŞ-ın Polşadakı müvəqqəti işlər vəkili Daniel Lyuton mərasimdə bildirib ki, tanklar və onların döyüş sursatı ilə bağlı müqavilələr ABŞ Prezidenti Cozef Baydenin Polşanın silah alışını sürətləndirməyə dair vədinin tərkib hissəsidir.

## Fransa Ukraynaya AMX-10 RC yüngül döyüş tankları göndərəcək



Fransa Ukraynaya yüngül döyüş tankları çatdıracaq.

Fransa Prezidentinin ukraynalı həmkarı Volodimir Zelenski ilə telefon danışığı olub. Telefon danışığından sonra Yelisey sarayı Fransa Prezidentinin Kiyevə verilən hərbi yardımı artırmaq istədiyini bildirərək, AMX-10 RC yüngül döyüş tanklarını çatdıracağını elan edib.

Bildirilib ki, ilk dəfə Ukrayna silahlı qüvvələrinə Qərb proyektli tanklar verilir. Tankların sayı və çatdırılma tarixi haqqında məlumat verilməyib. Qeyd edilib ki, AMX-10 RC yüngül tanklardır və rels üzərində deyil, təkərlər üzərindədir.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətə qəbul və ehtiyata buraxılma tədbirləri keçirilir

*Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" müvafiq sərəncamının icrası ilə bağlı orduda həyata keçirilən tədbirlər davam edir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ehtiyata buraxılırlar.

Bu münasibətlə rayon və şəhərlərdə, eləcə də işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrdə ordudan tərxis olunan hərbi qulluqçuların təntənəli yola salınma mərasimləri keçirilir.

Keçirilən tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Vətən müharibəsində qazanılan parlaq qələbədən, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlığı, şücaət göstərməklə şərəfli missiyanı yerinə yetirərək öz doğma torpaqlarımızı işğalçılardan azad etməsindən danışılıb.

Komandanlığın təbrik-müraciəti hərbi qulluqçulara çatdırılıb, hərbi xidməti uğurla başa vurmuş gənclərə uğurlar arzulanıb.

Ehtiyata buraxılan hərbi qulluqçular daima Vətənin müdafiəsi naminə cənab Ali Baş Komandanın əmrinə hazır olacaqlarını bildiriblər. Gənc əsgərlər isə silahdaşları adından, özündən əvvəlki döyüşçülərin ənənələrini davam etdirəcəklərinə, ərazi bütövlüyümüzü göz bəbəyi kimi qoruyacaqlarına söz veriblər.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

# BQXK-nın avtomobillərinin Laçından Xankəndi istiqamətinə maneəsiz keçidi təmin edilib

Yanvarın 5-də aksiya iştirakçıları Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Laçından Xankəndi istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

AZƏRTAC xəbər verir ki, bu dəqiqələrdə Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus altı avtomobil aksiya ərazisindən sərbəst keçib.

Qeyd edək ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 25 gündür keçirilir.

Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə təşkil edilib.

Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

## *Əsgərin tribunası*

# Şəhidləri ziyarət xidmətimin davamı olacaq

*Hərbi xidmətə gəlməzdən əvvəl əsgərlik haqqında bir çox sözlər eşidirdim. "Əsgərlik kişilik məktəbidir", "Övladlıq borcudur", "Əsl həyat məktəbidir"... və digər sözlər hərbi xidmətə olan həvəsimi daha da artırırdı. Hərbi xidmət keçib qayıdanların, hərbçi tanışlarımın dediklərindən artıq bir mətləbi dərk eləmişdim: hərbi xidmət hər insan üçün borcdur və bir çox üstünlüklər qazandırır.*



Ona görə də həmişə əsgərliyə gedəcəyim günü səbirsizliklə gözləmişəm. Artıq xidmətdəyəm. Vətən qarşısında övladlıq borcumu layiqincə yerinə yetirmək üçün tam məsuliyyətlə xidmət edirəm. Hərbi xidmətimi başa vurmağıma sayılı günlər qalıb. Xidmət dövrümdə əsgərlik haqqında deyilən bütün müsbət fikirlər öz təsdiqini tapdı. Həqiqətən də, rəşadətli və qalib ordumuzun əsgəri olmaq, Vətənin keşiyində durmaq şərəfli və qürurlu vəzifədir. Cəmiyyətə yararlı şəxs kimi formalaşmaq üçün hər bir gənc bu həyat məktəbini keçməlidir. Bu məktəb səni hərtərəfli formalaşdırır. Kişiyə xas xüsusiyyətləri daha da möhkəmləndirir. Vətənpərvərliyin, Vətən sevgisinin nə olduğunu daha dərindən dərk edirsən. Valideyn qayğısının, sevgisinin mahiyyətini daha yaxşı anlayırsan. Əsgər kimi döyüş vərdişlərinə, hərbi biliklərə yiyələnirsən. Eləcə də bir çox üstün keyfiyyətlər qazanırsan. Hərbi xidmətin bizə verdiyi üstünlüklərdən nə qədər danışsaq, az olar. Hərbi hissədə yaradılan yüksək məişət şəraiti isə döyüş ruhumuzu artırır. Bütün təminatlarımızın qaydasında olması uğurlu xidmət etməyimizə zəmin yaradır. Heç nədən korluq çəkməyən əsgərlər də müqəddəs vəzifələrinin öhdəsindən layiqincə gəlməyə can atırlar.

Xidmətdən əvvəl doğulduğum Cəlilabad rayonunda dəfələrlə İkinci Qarabağ müharibəsində şəhid olan qəhrəman qardaşlarımızın anım tədbirlərində iştirak etmişəm. Onların xidmət yolunu, qəhrəmanlıqlarını dinlədikcə hərbi xidmətə daha da ruhlanmışam. Tədbirlərdə onların ünvanına səslənən fikirləri yaddaşıma köçürmüşəm. Xalqımızın Vətən yolunda şəhid olanları heç zaman unutmayacağına, onların əziz xatirəsini daim dərin hörmətlə anacaqlarına əmin olmuşam. Onların Vətən sevgilərini, qəhrəmanlıqlarını biz yaşatmalı, davam etdirməliyik. Qanları bahasına azad etdikləri torpaqlarımızı göz bəbəyi kimi qorumalıyıq. Hərbi xidmətə bu amalla gəlmişdim. Nümunəvi xidmətimlə, bacarıqlı əsgər olmaqla şəhidlərimizin ruhlarını şad edəcəm. Xidmətimi uğurla başa vurmaq üzrəyəm. Komandirlərimin və əsgər yoldaşlarımın sevgisini qazana bilmişəm. Valideynlərimin yanına başıuca qayıdıram. Rayonumuza gedəndə şəhidlərin məzarını ziyarət edəcəm, bunu hərbi xidmətimin davamı biləcəm. Bu dəfə onların görüşünə sadə vətəndaş kimi yox, ana Vətənə övladlıq borcunu layiqincə yerinə yetirən və Vətənin çağırışına hər an hazır olan hazırlıqlı əsgər kimi gedəcəm.

**Əsgər**
**Elşən QASIMOV**
**"N" hərbi hissəsi**

# İdman

## Şahmatçımız Read Səmədov Bazel festivalında birinci olub



İsveçrənin Bazel şəhərində şahmat üzrə Milad bayramına həsr olunan festival keçirilib. İlin sonuncu şahmat yarışında Azərbaycanı Read Səmədov təmsil edib.

Turnirin sonuncu turunda R.Səmədov Almaniya şahmatçısı Morits Veyshauterlə heç-heçə oynayıb. Yekunda üç şahmatçı 7 xal toplayıb. Əlavə göstəricilərə görə, rəqiblərini qabaqlayan şahmatçımız Bazel turnirinin qalibi olub.

Qeyd edək ki, yarışda 16 ölkədən 73 şahmatçı iştirak edib.

## Bakı boks üzrə Avropa çempionatına ev sahibliyi edəcək

İyirmi iki yaşadək kişi və qadın boksçular arasında Avropa çempionatı Azərbaycanda keçiriləcək.

Bununla bağlı qərarı Avropa Boks Konfederasiyası İtaliyanın Assizi şəhərində açıqlayıb.

Səsvermənin nəticəsinə əsasən, Azərbaycan digər rəqibləri Bolqarıstan və Rumıniyanı qabaqlayaraq yarışa ev sahibliyi hüququ qazanıb. Bakıda keçiriləcək Avropa çempionatı oktyabr-noyabra təsadüf edəcək. Qitənin ən güclülərinin bir araya gələcəyi və Azərbaycanın ilk dəfə qəbul edəcəyi yarışın dəqiq tarixi bu günlərdə dəqiqləşəcək.

Avropa Boks Konfederasiyası, həmçinin digər qitə çempionatlarının da ev sahiblərini açıqlayıb. Yeniyetmələr arasında Avropa birinciliyi iyulda Rumıniyada, məktəblilər arasında yarış avqustda Sloveniyada olacaq.

## Dünyanın aparıcı şahmatçılarının ötən il qazandıqları pul mükafatlarının miqdarı açıqlanıb



Dünyanın aparıcı şahmatçılarının 2022-ci ildə qazandıqları pul mükafatlarının miqdarı açıqlanıb.

Norveçli dünya çempionu Maqnus Karlsen ötən il ən çox - 558 min ABŞ dolları əldə edib. ABŞ təmsilçiləri Uesli So (536 min) və Hikaru Nakamura (516 min) ilk üçlükdə yer alıblar.

Qeyd edək ki, ötən ilin dekabrında M.Karlsen blits və rapid üzrə dünya çempionatlarının qalibi olub.

## Ronaldonun "Əl-Nəsr"in oyunçusu kimi təqdimat mərasimini üç milyard insan izləyib



Hücumçu Kriştiano Ronaldonun Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun oyunçusu kimi təqdimatını üç milyard insan izləyib.

Bu barədə jurnalist Pedro Sepulveda özünün sosial şəbəkə hesabında paylaşım edib.

Mənbənin sözlərinə görə, 37 yaşlı hücumçunun təqdimatını 3 milyard tamaşaçı auditoriyası ilə dünyanın 40 kanalı nümayiş etdirib.

2022-ci ildə Qətərdə Argentina və Fransa millilərinin qarşılaşdığı (penaltilər üzrə 3:3, 4:2) dünya çempionatının final oyununu dünyada 2 milyard insan izləyib.

Qeyd edək ki, yanvarın 3-də "Əl-Nəsr" Ronaldonu Ər-Riyaddakı 25 min tamaşaçı tutumuna malik "Mrsul Park" stadionunda təqdim edib. Portuqaliyalı Səudiyyə Ərəbistanı klubu ilə 2025-ci ilin yayına qədər müqavilə imzalayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Ehtiyatda olan polkovnik-leytenant Mustafayev Azər Sabir oğluna verilmiş M/ V № 016538 nömrəli "Müharibə Veteranı vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1
Nüsxə 4460